**Aparılası seçki qutusunu daşıyan komissiya üzvlərinin funksiyaları (maddə 66)**

**DİQQƏT!**

Aparılası seçki qutusunun vasitəsilə səsvermə seçkilər günü saat 09:00-dan saat 19:00-dək keçirilir.

- Səsvermə günü saat 9:00-da Məntəqə seçki komissiyasının sədri sizə təhvil verməlidir:
  - ✓ Aparılası seçki qutusunun siyahısını;
  - ✓ Seçicilərin qeydiyyatçısı tərəfindən imzalanmış və xüsusi möhürlə təsdiq edilmiş lazımi miqdarda seçki bülletenlərini;
  - ✓ Xüsusi zərfləri;
  - ✓ Yoxlama vərəqəsi yerləşdirilən möhürlənmiş aparılası seçki qutusunu,;
- Seçiciyə yaxınlaşan kimi ondan təqdim olunmasını xahiş edin:
  - ✓ Gürcüstan vətəndaşlığını təsdiq edən şəxsiyyət vəsiqəsini və yaxud Gürcüstan vətəndaşlığı pasportunu;
  - ✓ Məcburi yerini dəyişmiş şəxs halında –Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsi və yaxud Gürcüstan pasportu ilə birlikdə qaçqınlıq şəhadətnaməsini;
- Seçicinin şəxsi nömrəsini aparılası seçki qutusunun siyahısında mövcud olan şəxsi nömrə ilə müqayisə edin.
- Aparılası seçki qutusunun siyahısında öz imzanızla seçki bülleteninin verilməsini təsdiq edin.
- Seçicidən xahiş edin ki, aparılası seçki qutusunun siyahısında öz soyadının qarşısında seçki bülleteni almasını öz imzası ilə təsdiq etsin.
- Seçiciyə qeydiyyatçının imzası və möhürü ilə təsdiq olunmuş seçki bülleteni verin.

- Seçici tərəfindən bülleten doldurulduqdan sonra ona xüsusi zərf verin və göstərin ki, qatlanmış seçki bülletenini onda yerləşdirsin.
- Seçicidən xahiş edin ki, xüsusi zərfi aparılan seçki qutusuna salsın.
- Səsvermə başa çatdırıldıqdan sonra aparılası seçki qutusunun kəsiyini elə möhürləyin ki, möhürü zədələmədən onu açmaq mümkün olmasın.
- Aparılası seçki qutusunu ən geci saat 20:00-dək seçki məntəqəsinə qaytarın.
- Səsvermə binasına qayıtdıqdan sonra Məntəqə seçki komissiyasının katibinə istifadə olunmamış bülletenləri və xüsusi zərfləri təhvil verin, Məntəqə seçki komissiyası sədrinin göstərişlərini gözləyin.

**DİQQƏT!**

- Əgər aparılası seçki qutusunun möhürünün bütövlüyü pozularsa, bu barədə Məntəqə seçki komissiyası sədri dərhal məlumatlandırılmalıdır. Müvafiq protokol tətbiq edin (səbəbi göstərin) və yanındakı şəxslərlə birlikdə imzalayın. Komissiya sədrinin növbəti göstərişlərini gözləyin.
- Aparılası seçki qutusu vasitəsi ilə səsvermədə iştirak edən seçiciyə markirovka tətbiq olunmur.
- Fiziki vəziyyətinə görə seçici tərəfindən aparılası seçki qutusu vasitəsilə səs verildiyi təqdirdə, aparılası seçki qutusu siyahısının “Seçicinin imzası” qrafasında –aparılası seçki qutusunu daşıyan komissiya üzvü “Fiziki vəziyyət” adlı qeyd yazır və bunu şəxsi imzası ilə təsdiq edir.
- Fiziki vəziyyətinə görə seçicinin (həmçinin seçki bülletenini sərbəst doldura bilmədikdə) yerinə onun yanında seçki bülletenini doldurur, xüsusi zərfə yerləşdirir və zərfi seçki qutusuna atır (o, seçki komissiyasının üzvü, namizəd, seçki subiyektinin nümayəndəsi və müşahidəçi olmamalıdır).